AZƏRBAYCAN RESPUBLİKASI

KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ

AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

AZƏRBAYCANDA BOSTAN BİTKİLƏRİ İSTEHSALI İLƏ BAĞLI

A R A Y I Ş

Bakı – 2021

Mündəricat

1. Sahə, istehsal və məhsuldarlıq göstəriciləri 3
2. Qiymət göstəriciləri 6
3. İdxal və ixrac göstəriciləri 7
4. Qlobal istehsal, idxal və ixrac göstəriciləri 8

1. Sahə, istehsal və məhsuldarlıq göstəriciləri

- 2020-ci ildə qarpızın əkin sahəsi 2015-ci ilə nisbətən 26.5%, 2019-cu ilə nisbətən isə 4.6% azalaraq 14.4 min hektar olub *(Qrafik 1).*
- 2020-ci ildə yemişin əkin sahəsi 2015-ci ilə nisbətən 31.7%, 2019-cu ilə nisbətən isə azalaraq 9.7% azalaraq 5.6 min hektar olub *(Qrafik 1).*

Qrafik 1. Azərbaycanda bostan bitkilərinin sahəsi, min ha



Mənbə: Dövlət Statistika Komitəsi

- 2020-ci ildə qarpız istehsalı 2015-ci ilə nisbətən 1.8% azalıb, 2019-cu ilə nisbətən isə 2.3% artaraq 358.5 min ton olub *(Qrafik 2).*
- Yemiş istehsalı 2020-ci ildə 2015-ci ilə nisbətən 25.2%, 2019-cu ilə nisbətən isə 8.1% azalaraq 89.5 min ton olub *(Qrafik 2).*

Qrafik 2. Azərbaycanda bostan bitkilərinin istehsalı, min ton



Mənbə: Dövlət Statistika Komitəsi

2020-ci ildə qarpız istehsalının 32.9%-i Sabirabad, 16.7%-i Saatlı, 9.9%-i Bərdə, 7.0%-i Kürdəmir, 6.4%-i Naxçıvan Muxtar Respublikası, 3.4%-i Salyan, 2.4%-i Zaqatala, 2.2%-i Ağcabədi, 2.0%-i Neftçala rayonunun payına düşüb *(Qrafik 3).*

Qrafik 3. Əsas istehsalçı rayonlarda qarpız üzrə məhsul yığımı, min ton



Mənbə: Dövlət Statistika Komitəsi

Yemiş istehsalının 20.7%-i Saatlı, 20.4%-i Kürdəmir, 17.1%-i Sabirabad, 9.8%-i Naxçıvan Muxtar Respublikası, 4.9%-i Salyan, 4.4%-i Masallı, 3.2%-i Hacıqabul, 1.7%-i Ağsu, 1.7%-i Astara, 1.6%-i İmişli rayonunun payına düşüb *(Qrafik 4).*

Qrafik 4. Əsas istehsalçı rayonlarda yemiş üzrə məhsul yığımı, min ton



Mənbə: Dövlət Statistika Komitəsi

2020-ci ildə qarpızın məhsuldarlığı 2019-cu ilə nisbətən 7.4% artaraq 247.7 sent/ha, yemişin məhsuldarlığı isə 2.8% artaraq 161.0 sent/ha olub *(Qrafik 5).*

Qrafik 5. Azərbaycanda bostan bitkilərinin məhsuldarlığı, sent/ha



Mənbə: Dövlət Statistika Komitəsi

Qarpızın əsas istehsalçı rayonları olan Neftçala, Sabirabad, Saatlı və Bərdə rayonlarında məhsuldarlıq göstəricisi ölkə üzrə orta göstəricidən yüksəkdir *(Qrafik 6)*.

Qrafik 6. Qarpızın əsas istehsalçı rayonlarda məhsuldarlığı, sent/ha



Mənbə: Dövlət Statistika Komitəsi

Yemişin əsas istehsalçı rayonları olan Saatlı, Sabirabad və Kürdəmir rayonlarında məhsuldarlıq göstəricisi ölkə üzrə orta göstəricidən yüksəkdir *(Qrafik 7)*.

Qrafik 7. Yemişin əsas istehsalçı rayonlarda məhsuldarlığı, sent/ha



Mənbə: Dövlət Statistika Komitəsi

2. Qiymət göstəriciləri

2017-2020-ci illər ərzində daxili bazarda mövsümdən asılı olaraq qarpızın 1 kiloqramının topdan satış qiymətləri 0.13-1.00 AZN, yemişin 1 kiloqramının topdan satış qiymətləri isə 0.31-1.35 AZN arasında dəyişib *(Qrafik 8, 9).*

Qrafik 8. Qarpızın topdan satış qiymətləri, AZN/kq



Mənbə: aqrarbazar.az

Qrafik 9. Yemişin topdan satış qiymətləri, AZN/kq



Mənbə: aqrarbazar.az

3. İdxal və ixrac göstəriciləri

2020-ci ildə Azərbaycandan qarpız ixracı 2019-cu ilə nisbətən 1.2 dəfə artaraq 4.2 min ton olub. 2016-2020-ci illər ərzində ölkəyə qarpız idxalı isə orta hesabla 420 ton təşkil edib *(Cədvəl 1).*

Cədvəl 1. Qarpızın idxal və ixrac həcmi

İllər	İdxal		İxrac	
	miqdarı, ton	məbləği, min ABŞ dolları	miqdarı, ton	məbləği, min ABŞ dolları
2016	118.2	49.3	117.5	36.7
2017	124.9	78.6	668.1	331.3
2018	1287.2	546.9	163.4	57.8
2019	289.7	170.4	3593.2	237.3
2020	722.8	460.3	4240.8	1914.1

Mənbə: Dövlət Gömrük Komitəsi

2020-ci ildə Azərbaycandan yemiş ixracı əvvəlki ilə nəzərən 24.2% azalaraq 279.9 ton olub. 2016-2020-ci illər ərzində ölkəyə yemiş idxalı isə orta hesabla 55 ton təşkil edib *(Cədvəl 2).*

Cədvəl 2. Yemişin idxal və ixrac həcmi

İllər	İdxal		İxrac	
	miqdarı, ton	məbləği, min ABŞ dolları	miqdarı, ton	məbləği, min ABŞ dolları
2016	31.6	19.1	868.1	223.2
2017	29.3	17.5	168.1	172.0
2018	39.8	26.8	149.7	39.0
2019	64.6	39.1	369.2	72.0
2020	154.1	97.4	279.9	188.1

Mənbə: Dövlət Gömrük Komitəsi

2020-cu ildə ölkədən ixrac olunan qarpızın 66.6%-i Rusiyanın, 28.2%-i Ukraynanın, 5.2%-i isə digər ölkələrin payına düşüb *(Cədvəl 3).*

Cədvəl 3. Azərbaycandan qarpız ixracının ölkələr üzrə bölgüsü

	2017		2018		2019		2020	
	Miqdar, ton	Məbləği, min ABŞ dolları	Miqdar, ton	Məbləği, min ABŞ dolları	Miqdar, ton	Məbləği, min ABŞ dolları	Miqdar, ton	Məbləği, min ABŞ dolları
Rusiya	570.3	321.1	60.2	36.1	21.0	12.6	2,825.3	1,666.2
Ukrayna	-	-	-	-	-	-	1,194.8	220.5
Gürcüstan	97.8	10.2	-	-	3,436.1	209.2	190.2	22.3
BƏƏ	-	-	103.2	21.6	136.1	15.5	30.5	5.1
Cəmi ixrac	**668.1**	**331.3**	**163.4**	**57.8**	**3,593.2**	**237.3**	**4,240.8**	**1,914.1**

Mənbə: Dövlət Gömrük Komitəsi

2020-ci ildə ölkədən ixrac olunan yemişin 65.0%-i Rusiyaya, 22.0%-i Gürcüstana, 13.0%-i isə digər ölkələrə ixrac olunub *(Cədvəl 4).*

Cədvəl 4. Azərbaycandan yemiş ixracının ölkələr üzrə bölgüsü

	2017		2018		2019		2020	
	Miqdar, ton	Məbləği, min ABŞ dolları	Miqdar, ton	Məbləği, min ABŞ dolları	Miqdar, ton	Məbləği, min ABŞ dolları	Miqdar, ton	Məbləği, min ABŞ dolları
Rusiya	153.9	168.9	14.0	15.3	39.2	33.1	181.8	174.6
Gürcüstan	14.1	3.2	135.2	23.5	329.9	38.9	61.7	6.2
Digər	-	-	0.5	0.1	-	-	36.4	7.28
Cəmi ixrac	**168.1**	**172.0**	**149.7**	**39.0**	**369.2**	**72.0**	**279.9**	**188.1**

Mənbə: Dövlət Gömrük Komitəsi

4. Qlobal istehsal, idxal və ixrac göstəriciləri

FAO-nun məlumatına əsasən dünya üzrə 2019-cu ildə 100.4 milyon ton qarpız istehsal olunub. Dünya üzrə istehsal olunan qarpızın təqribən 80%-ə qədəri 10 ölkənin payına düşüb *(Qrafik 10).*

Qrafik 10. Qarpızın qlobal istehsal göstəriciləri, milyon ton



Mənbə: Faostat.org

FAO-nun məlumatına əsasən dünya üzrə 2019-cu ildə 27.5 milyon ton yemiş istehsal olunub. Dünya üzrə istehsal olunan yemişin təqribən 80%-ə qədəri 10 ölkənin payına düşüb *(Qrafik 11).*

Qrafik 11. Yemişin qlobal istehsal göstəriciləri, milyon ton



Mənbə: Faostat.org

2019-cu ildə qlobal bazarda qarpız ixracının həcmi 3.5 milyon ton və ya 1.5 milyard ABŞ dolları olub *(Qrafik 12).*

Qrafik 12. Qlobal bazarda qarpız ixracının həcmi



Mənbə: Trademap.org

- Qarpızın əsas idxalçıları ABŞ (22.7%), Almaniya (13.0%), Çin (7.6%), Kanada (6.3%) və Fransadır (6.3%).
- Dünya üzrə qarpız ixracında isə İspaniya (26.3%), Meksika (9.7%), İtaliya (6.7%), Vyetnam (6.7%) və ABŞ (6.3%) ilk beşlikdədir.

- 2019-cu ildə qlobal bazarda yemiş ixracının həcmi 2.3 milyon ton və ya 1.6 milyard ABŞ dolları olub *(Qrafik 13).*

Qrafik 13. Qlobal bazarda yemiş ixracının həcmi



Mənbə: Trademap.org

- Yemişin əsas idxalçıları ABŞ (28.1%), Hollandiya (10.7%), Fransa (8.3%), Birləşmiş Krallıq (7.8%) və Kanadadır (6.7%).
- Dünya üzrə yemiş ixracında isə İspaniya (20.0%), Qvatemala (13.7%), Braziliya (11.1%), Honduras (10.9%) və Hollandiya (7.5%) ilk beşlikdədir.

Kənd Təsərrüfatı Nazirliyi tabeliyində

Aqrar Tədqiqatlar Mərkəzi

tərəfindən hazırlanıb

Əlaqə:

(+994 12) 599-08-88

www.atm.gov.az

info@atm.gov.az

Nizami küçəsi, 92
AZ 1010 Bakı, Azərbaycan

AQRAR TƏDQİQATLAR MƏRKƏZİ